

Şəhla Vahid

## ALLAH

Götür bizi at torpağa,
Bir gül kimi bitir, Allah.
Bu insan ömrü adını,
Üstümüzdən götür, Allah.

Nursuz bir gözü yaratma
Qəlblərdə sizi yaratma
Ya heç bir arzu yaratma
Ya arzuya yetir, Allah.

## DÜNYA

Niyə silkələnirsən
Haran ağrıyır, dünya?
Bölmüşük, ölkələrə
Yaran ağrıyır, dünya.

Kim səndən çıxdı qaçdı
Ölmünə əl açdı.
Harda bir körpə acdı
Oran ağrıyır, dünya.

Qazdılar dərin-dərin.
Qan doludu səngərin
Qalmadı bütöv yerin,
Paran ağrıyır, dünya.

## SİRR SAXLAMIR

Gecələrin əli uzun.
Həsrətin oduna qızın
Axır ki, çıxdı buynuzun
Quyularda sirr saxlamır
Söküləni tikən olub,
Tikiləni sökən olub.
Canımız yel çəkən olub.
Ruhumuzu tər saxlamır.

Yaş süzüldü yeddi qatdan
Axdı gözündəki çatdan
Qaçır ayağımız altdan
Daha bizi yer saxlamır.

## DOĞULANLAR

Qara bəxtdən xoflanıb,
Bir ömürə saplanıb.
Arzularda toplanıb.
Ümiddə dağılanlar

Ölüm ağ yol dünyada
Hələ ki qal dünyada.
Havası bol dünyada
Havasız boğulanlar.

Sirr gəlib, sirr öldülər.
Boşaldı yer öldülər
Müxtəlif cür öldülər.
Eyni cür doğulanlar.

## ŞEYTAN APARDI

Yediyimiz nəsə dadır.
Tamını şeytan apardı.
Qaranlıqda işıq gəzən
Şamını şeytan apardı.

Sən tutaydın barı dilək
Yarı ümid, yarı dilək,
Bizə qaldı quru dilək.
Kamını şeytan apardı.

Dirilər də ölü çıxdı.
Hər bir işdən əli çıxdı.
Ağıllı zır dəli çıxdı.
Xamını şeytan apardı.

Yolumuzu saldıq dindən,
İndi niyə qaldıq dindən,
Olduq candan, olduq dindən
Çoxunu şeytan apardı.

## ÇIXDI

Göylər tökdü göz yaşını.
Yer üzünün kiri çıxdı.
Günahlar qamış bitirdi.
Quyulardan sirri çıxdı.

Döyüldü bazar qapılar,
Təpikdən bezar qapılar.
Açıldı məzar qapılar.
Biri gəldi, biri çıxdı.

Kimlər isindi istində.
Kimlər kor oldu tüstündə.
Hamının torpaq üstündə,
Özü boyda yeri çıxdı.

## ÖLÜM GEDİM

Hisslərində yaşayım
Özündə ölüm gedim.
Göz yaşında boğulum
Gözündə ölüm gedim.

Çiçək olum yolunda,
Bitim qalım yolunda,
Açım-solum yolunda
İzində ölüm gedim.

Gedim əlindən çıxım.
Yansan külündən çıxım.
Son kəs dilindən çıxım.
Sözündə ölüm gedim.

## SINDI

Bir-bir qırıldı inadın,
Əhdin sındı, sözün sındı.
Çoxmu ağır gəldim sənə?
Qəlbin çökdü dizin sındı.

Günahkar demə qismətə
Demə ki atdı həsrətə.
Əyildin o məhəbbətə.
Əvvəl-axır nazın sındı.

Soyuduqca od-ocaqda,
Qalmadı bir dad ocaqda.
İsindikcə yad ocaqda,
Yavaş-yavaş buzun sındı.



kaspi.-2016.-26-28 noyabr.-S.23.